Elfira Məlikova-Qurbanova
ADMIU-nun “Muzeyşünaslıq” kafedrasının dosenti
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Muzeyşünas alim
E-mail:elfiramelikova@gmail.com

MUZEYŞÜNASLIĞIN İNKİŞAFINDA AZƏRBAYCANIN SƏNƏTŞÜNAS ALİMİ MÜRSƏL NƏCƏFOVUN ROLU

Azərbaycanın sənətşünaslıq tarixi yarım əsirdən bir qədər çoxdur. Milli tariximizin ilk sənətşünasları Azərbaycanın elm tarixində mükəmməl, fundamental əsərləri ilə, iz qoymağı bacarmışlar. Onlardan akademik Rasim Əfəndiyev, professorlar - Cəmilə xanım Novruzova, Mürsəl Nəcəfov, Məmmədağa Tərlanov, Nüreddin Həbibov, Ramiz Ağayev və digərlərinin adlareını çəkmək olar. Bu şəxslər çalışdıqları müddət ərzində Azərbaycanda sənətşünaslıq elminin əsasını qoymağı bacarmışlar. Yeni nəsil sənətşünasların yetişməsi üçün böyük fundamental bilgilərini ötürməyi bacarmışlar. Yuxarıda adları çəkilən sənətşünas alimlər üzərində işlədikləri hər bir mövzunun dəqiq, elmi əsaslarla yazılması üçün böyük əmək sərf etmiş, özlərindən sonra çox sayda əsərlər qoymuşlar. Respublikamızda professional sənətşünaslıq elminin yaranması, təsviri sənətimizin tarixi inkişaf mərhələlərinin tədqiqi və təbliği bilavasitə sənətşünaslıq doktoru, professor Mürsəl Nəcəfovun da adı ilə bağlıdır. “Müasir Azərbaycan sənətşünaslığında az mütəxəssis tapmaq olar ki, onun yaradıcılıq diapazonu, rəngarəngliyi və əhəmiyyəti ilə Mürsəl Nəcəfovun yaradıcılığı ilə müqayisə edilə bilsin. Doğrudan da, M.Nəcəfovun sənətşünaslıq sahəsində yazıb-yaratdığı əsərlər həm həcminə, həm də dolğun, rəngarəng olmasına görə diqqətimizi dərhal cəlb edir” (9.s.8). O, çoxsaylı tədqiqat işlərinin, monoqrafiyaların və məqalələrin müəllifidir.

Mürsəl Nəcəfqulu oğlu Nəcəfov 1918-ci ildə sentyabrın 20-də Bakının Novxanı kəndində anadan olmuşdur. 1932-ci ildə Bakıda 4 saylı yeddi illik məktəbi bitirdikdən sonra Rəssamlıq məktəbinə (daha sonra Rəssamlıq texnikumu) daxil olmuş, 1936-cı ildə texnikumu fərqlənmə diplomu ilə bitirmişdir. M.Nəcəfov Rəssamlıq məktəbində Kazım Kazımzadə, Mehdi Hüseynzadə, Məmmədağa Tərlanovla birgə təhsil aldığı müddətdə onlara Əzim Əzimzadə, Həsən Rasim, İbrahim Quliyev, Cavadbəy Rəfibəyli kimi sənətkar-pedaqoqlar dərs demişdir. M.Nəcəfov təhsil alarkən daha çox incəsənət tarixinə maraq göstərirdi. Müəllimi Cavadbəy Rəfibəyli tələbəsinin real potensialını düzgün qiymətləndirərək, onu sənətşünaslıq istiqamətinə yönəldir. 1937-ci ildən Bakıda müəllimlik fəaliyyətinə başlayır. 1939-cu ildə onu İncəsənət muzeyinə “Azərbaycan İncəsənəti” şöbəsinə müdir vəzifəsinə təyin edirlər. 1940-cı ildə onun Azərbaycan Rəssamlarının I Qurultayında İttifaqın Rəyasət heyətinin məsul katibi, Rəssamlar İttifaqının sədri vəzifəsinə namizədliyi irəli çəkilib. Çox maraqlı tarixi faktlardan biri də rəssamlığa 1930-cu illərdə gələn rəssam-sənətşünas alim M.Nəcəfovun ilk böyük

müvəffəqiyyəti 1940-cı ildə respublika hökuməti tərəfindən verilən sərəncama əsasən: "Böyük şair və mütəfəkkir Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar şairin portret təsvirinin və heykəltəraşlıq abidəsinin yaradılması üçün verilən elana görə müsabiqədə iştirak etmək hüququnu qazanması idi. SSRİ üzrə keçirilən müsabiqədə 33 nəfər rəssamlıq məktəblərinin nümayəndələri də iştirak edirdilər. Azərbaycanın xalq şairi Səməd Vurğunun sədirlik etdiyi münsiflər heyətinin birgə qərarı ilə birinci mükafata rəssam Qəzənfər Xalıqov layiq görülmüşdür. Danılmaz fakt olaraq Qəzənfər Xalıqovun yaratdığı Nizami obrazı ilk və son rəsmi obraz olaraq dünya poeziyasının dahi ustasının əsas portreti kimi götürülür. X.Zeynalov "Mürsəl Nəcəfov" adlı məqaləsində yazır: "İkinci yeri Həsən Haqverdiyev və Mürsəl Nəcəfov bölüşdürmüşlər. Təəssüf ki, axırıncı iki işin orijinalları saxlanılmamışdır. Əvəzində, görkəmli Azərbaycan şairi Natəvanın əməldaşı-məşhur Qarabağ şairi, rəssam və musiqi tədqiqatçısı Mirmöhsüm Nəvvabın təxminən həmin dövrdə Mürsəl Nəcəfov tərəfindən çəkilmiş portreti bizə gəlib çatmışdır. Nəvvabın portreti R.Mustafayev adına Dövlət İncəsənət muzeyinin ekspozisiyasında saxlanılır" (10, s.32).

Mürsəl müəllimin ömrünün beş ən dəyərli illəri cəbhələrdə keçmiş, müharibə onu müvəqqəti olaraq fəal yaradıcılıq mühitindən üzaqlaşdırmışdır. Hərbi komissarlığın bronu olsa da, 1941-ci ilin avqustunda könüllü surətdə orduya üzv yazılmışdır. O, Bakı Zenit Artilleriyası Məktəbinə kursant götürülmüşdür. Zenitçilər məktəbində oxuduğu zaman Rəssamlar İttifaqı ilə əlaqəni kəsməyib, tez-tez yoldaşları ilə görüşür, yaradıcılıq təşkilatına imkanı daxilində köməklik göstərirdi. Bakı qarnizonu zabitləri evində keçirilən görüşlərdə iştirak edən M.Nəcəfov, bir qayda olaraq, rəssamların cəbhəyə köməkliyindən, xüsusilə azərbaycanlı döyüşçülərə hərr olunmuş əsərləri və habelə siyasi satira plakatlarından və karikaturalarından danışırdı" (4). O dövrün rəsmi hesabat sənədlərindən məlumdir ki, İkinci Vətən Müharibəsi illərində 400-ə yaxın satirik plakat azı 70.000 tirajla hazırlanıb yayılmışdı. "Təşviqat pəncərəsi" silsiləsinə daxil olan satira plakatları ilə yanaşı, Bakıda siyasi plakat nəşrinə də ciddi fikir verilirdi. "Azərnəşr" xətti ilə çap olunan rəngli plakatlar o dövrün ən aktual problemlərinə toxunurdu: Bakı neftçilərinin, panbıqçıların, maldarların fədakar əməyi mövzu baxımından plakatların leytmotivini təşkil edirdi. M.Nəcəfovun 1941-ci ildə işlədiyi bir plakat zavod və fabriklərdən cəbhəyə getmiş kişiləri əvəz edən qadınlara həsr edilmişdir. Müharibə illərində İncəsənət işləri İdarəsi və Rəssamlar İttifaqının rəhbərliyi (başda M.Nəcəfov olmaqla) incəsənətin tərbiyəvi əhəmiyyətini nəzərə tez-tez sərgilər təşkil edirdilər. Belə sərgilərdən birincisi 1941-ci ildə keçirilir. "Vətən uğrunda" devizi altında həmin sərgidə müharibənin əvvəllərində yaradılmış "təşviqat pəncərələri" tematik şəkillər, heykəllər və satirik rəsmlər sərgilənirdi (2, s.175).

1942-ci ildə bədii sərgilərin sayı daha da çoxalır, onların coğrafi hüdudları xeyli genişlənir. Belə ki, may ayında "Azərbaycanın xalqının oğulları-Vətən müharibəsi qəhrəmanları", avqust ayında "Siyasi plakat və karikatura" sərgiləri, Böyük Oktyabr Sosialist İnqilabının XXV illiyinə həsr olunmuş tematik sərgilər təşkil edilirdi. Təşkilatçılıq işində fəallıq göstərən M.Nəcəfov, 1942-ci ildə Tbilisidəki respublikalararası bədii sərgidə: Gurcüstan, Ermənistan, Moskva və Krasnodar

rəssamları ilə bir sırada Azərbaycan Rəssamlarının da əsərlərinin göstərilməsini təşkil edir. Həmin sərgidə Azərbaycan Rəssamlar İttifaqının yaradıcılıq kollektivindən 9 nəfər, o cümlədən Ə.Əzimzadə, İ.Axundov, Q.Xalıqov, İ.Rijenkov və başqaları iştirak edirdilər (3, s.15).

1942-ci ildə M.Nəcəfov leytenant rütbəsində cəbhəyə yollanmış, Ukrayna, Rumıniya, Macarıstan və Avstriyanın azad olunmasında iştirak etmişdir. Mürsəl Nəcəfov qələbə müjdəsini Yuqoslaviyada-rəssam dostu əfsanəvi partizan, Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadənin igidliklə vuruşduğu ölkədə eşitmişdir. Yeri gəlmişkən, Mehdini Bakıdan cəbhəyə Mürsəl yola salmışdı. Odur ki, Mürsəlin batareyasının Yuqoslaviya səmasında vurduğu faşist təyyarəsi dostunun ölümü üçün qisas olmuşdur. Mürsəl Nəcəfov "Qızıl ulduz" döyüş ordeni almışdır (8).

M.Nəcəfovun rəssamlıq yaradıcılığının əsas qolu Böyük Vətən müharibəsi illərinə təsadüf edir. Bu illərdə Mürsəl Nəcəfov insanların bədii obrazlarını, onların hünər və rəşadətini əks etdirərək, qəhrəmanlıq nümunəsindən çıxış edən şəxslərin portretini yaradır. "Mürsəl müəllimin əsərlərində çox güclü vətənpərvərlik hissləri doğuran elementlər var. Adi kənd mənzərələri, adət-ənənələr olduqca milli formada təsvir olunmuşdur. Mürsəl Nəcəfov hansı janrda işləyirsə işləsin, onun əsərlərində həmişə nikbin bir əhvali-ruhiyyə hakim mövqe tuturdu. O rənglərin dili ilə həyatın fraqmentlərini yaradır, onlara qəlbinin hərarətini köçürür" (8). M. Nəcəfov hələ gəncliyində təhsil aldığı illərdə şəkil çəkməklə kifayətlənməyərək, məşhur rəssamların həyat və yaradıcılığını öyrənirdi.

Rəssamlıqla yanaşı sənətşünaslıq xarakterli araşdırmalarla da fəal surətdə məşğul olan M.Nəcəfov, müxtəlif azərbaycanlı rəssamların yaradıcılığını tədqiq edirdi. Təsviri sənətimizin tənqidi və təbliği ilə 1938-ci ildən məşğul olan Mürsəl Nəcəfovun bu sahədə ilk yazısı "Bəhruz Kəngərli" əsəri olmuşdur (5). İlk professional Azərbaycan rəssamı olan Bəhruz Kəngərlinin həyat və yaradıcılığına dair həmin məqalədə Mürsəl Nəcəfov görkəmli sənətkarın keşməkeşli həyatından, fərdi yaradıcılıq üslubundan söhbət açır.

1945-ci ildə cəbhədən qayıdan M.Nəcəfov müxtəlif orden və medallarla təltif edilmişdir. Yenidən Rəssamlar İttifaqında fəaliyyətə başlayan M.Nəcəfov Rəssamlıq İttifaqının məsul katibi, bir neçə aydan sonra isə idarə heyətinin sədri seçildi. 1947-ci ilin axırına qədər həmin vəzifədə çalışmışdır. 1947-ci ildə uzun illər arzusunda olduğu İ.Repin adına Leninqrad (hazırda Sankt-Peterburq Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun "İncəsənət nəzəriyyəsi və tarixi" fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. 1952-ci ildə təhsilini başa vuran Mürsəl Nəcəfov Rəssamlıq məktəbinə rəhbərlik etməklə yanaşı ciddi yaradıcılıq axtarışları ilə məşğul olur. O, 1962-ci ildə Leninqradda İ.Repin adına Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda "Azərbaycan satirik qrafikasının təşəkkülü. Əzim Əzimzadənin satirası" müvzusunda dissertasiya müdafiə edərək, sənətşünaslıq namizədliyi üzrə elmi dərəcəsi alır. Bir neçə ildən sonra, 1969-cu ildə Azərbaycan EA-da (hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyası) "Əzim Əzimzadə və Azərbaycan İncəsənətində onun mövqeyi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. Artıq bu vaxt o, respublikada və ümumittifaq miqyasında tanınmış sənətşünaslardan biri idi.

M.Nəcəfov 1952-ci ildən Rüstəm Mustafayev adına İncəsənət Muzeyində yenidən şöbə müdiri, Ə.Əzimzadə adına Rəssamlıq məktəbinin direktoru, 1953-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor müavini vəzifəsinə təyin edilir.

M.Nəcəfovun sənətşünaslıq sahəsində ilk böyük işi 1954-cü ildə Moskvada çap etdirdiyi "Əzim Əzimzadə" monoqrafiyasıdır. (Məlum olduğu kimi sonradan bir problem kimi bu monoqrafiyanın mövzusunu əsas tutaraq, geniş və fundamental tədqiqatlar apararaq namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmişdir). Bu monoqrafiya görkəmli Azərbaycan rəssamı Ə.Əzimzadə haqqında yazılan ilk sanballı əsərdir. Sənətşünas-alim M.Nəcəfov böyük rəssamı şəxsən tanıdığı və yaradıcılığına yaxından bələd olduğu üçün monoqrafiya həm elmi. Həm də bədii baxımdan maraqlı alınmışdır. Mürsəl Nəcəfov monoqrafiyada Əzim Əzimzadənin yaradıcılığını onun tanınmış. Çox dəyərli karikatura əsərləri ilə məhdudlaşdırmayaraq, sənətkarın geniş diapazonlu bir rəssam olduğunu elmi faktlarla sübut edir, milli teatr-dekorasiya sənətimizin inkişafında böyük xidmətlərini göstərir. Rəssamın Azərbaycan teatrları üçün çəkdiyi geyim eskizlərini – səhnə surətlərinin təsvirlərini araşdırdıqdan sonra Əzim Əzimzadənin Azərbaycanda teatr-dekorasiya sənətinin banisi olduğu kimi, teatr rəssamlığı sahəsində də Əzim Əzimzadənin ənənələrini gözəl bir məktəb kimi qiymətləndirir.

M.Nəcəfov Əzim Əzimzadənin Azərbaycanın müxtəlif muzeylərində və arxivlərində saxlanılan 500 artıq əsərini toplamış, hərtərəfli tədqiq və təhlil etmişdir. Xüsusilə rəssamın R.Mustafayev adına İncəsənət Muzeyində (hazırda Azərbaycan Milli İncəsənət Muzeyi), Azərbaycan Tarixi Muzeyində (Milli Azərbaycan Tarixi Muzeyi), V.İ.Lenin adına Mərkəzi muzeyin Bakı filialı (hazırda Muzey Mərkəzi), C.Cabbarlı adına Teatr Muzeyində, Nizami adına Ədəbiyyat Muzeyində (hazırda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi), Respublika Əlyazmalar Fondunda qorunub saxlanılan çoxsaylı orjinal əsərlər təfsilatla öyrənilmiş, onların müəyyən hissəsi təfsir və təhlil olunmuşdur. Fədakar tədqiqatçı Əzim Əzimzadənin Moskvanın və Yerevanın muzey və xəzinələrində (Şərq xalqları İncəsənəti Dövlət Muzeyində, V.İ.Lenin adına Dövlət Rəsm Qalereyasında), müxtəlif şəxsi kolleksiyalarda saxlanılan əsərlərini də aşkar edib üzə çıxarmışdır. Bundan başqa rəssamın dövrü mətbuatda (satirik və əbədi jurnallarda, qəzetlərdə, kitablarda. albomlarda və s.) minlərlə karikaturaları. Yumoristik rəsmləri, şarjları, kitab və jurnal illüstrasiyaları, siyasi və təşviqat plakatlarının çap və trafaret basmaları araşdırılıb istifadə edilmişdir. Monoqrafiya üzərində iş prosesində M.Nəcəfov sənətşünaslıq elminin aparıcı metodoloji üsullarından istifadə etmə bacarığını nümayiş etdirir.Əzimzadə yaradıcılığının bədii stilistik xüsusiyyətlərinin müqayizəli təhlili vasitəsilə görkəmli rəssamın əhəmiyyətli sayda rəsm və illüstrasiyalarını aşkar etməyə nail oldu.Nəticədə ilk dəfə olaraq Xalq rəssamının əsərlərinin siyahısı kataloq halına salınaraq alimin 1965-ci ildə "Azərnəşr" nəşriyyatında çapdan çıxan "Əzim Əzimzadə" adlı kitabına (rus dilində) əlavə kimi salındı (11). Bu monoqrafiyanın çapından sonra Ə.Əzimzadə əsərlərinin aşkarlanması və atribusiya üzərində aparılan iş adı çəkilən kitabın nəşrindən sonra da davam etdi. Azərbaycan SSR-nin arxivlərində. Əlyazmalar Fondunda, SSRİ və Azərbaycan SSR Rəssamlar İttifaqı, rəssamın

şəxsi arxivində saxlanılan sənədlər və məktublardan geniş məlumatlar toplayan M.Nəcəfov görkəmli rəssamın yaradıcılığını hərtərəfli təhlil etməyə müəssər olmuşdur.

M.Nəcəfov eyni zamanda, yəni 1954-cü ildə Moskvada Azərbaycanın görkəmli heykəltaraşı Fuad Əbdürrəhmanovun yaradıcılığına həsr edilmiş monoqrafiyasını da çap etdirir.

M.Nəcəfov müxtəlif kitab və albomların müəllifidir. O, "Sovet Azərbaycanı incəsənəti: boyakarlıq, heykəltəraşlıq, qrafika" (sənətşünas alim-Nürəddin Həbibovla birlikdə) (1957), Bəhruz Kəngərli (1957), "Heykəltəraşlıq haqqında" (sənətşünas-alim Cəmilə xanım Novruzova ilə birlikdə) (1960), "Təsviri incəsənət" (akademik Rasim Əfəndiyev, Məmmədağa Tərlanovla birlikdə) (1962), "Böyükağa Mirzəzadə"(1962), "Zaqafqaziya rəssamlarının yaradıcılıq əlaqələri" (1962), "Tahir Salaxov" (1964), "İzzət Seyidova" (1965), "Əsirlərdən xatirə" (1968), "Maral Rəhmanzadə" (1969), "Sovet Azərbaycanının incəsənəti" (1972),"Azərbaycan SSR təsviri sənəti" (1972), "Gözəllik aləminə səyahət" (1973, 1985), "Azərbaycan karikaturaçıları" (1973), "Altay Hacıyev" (1974), "Rəssam və zaman" (1977) və bir çox digər sanballı nəşrlərin müəllifidir. "Təsviri incəsənət" kitabı tədris vəsaiti kimi nəzərdə tutularaq bu günə qədər öz aktuallığını və əhəmiyyətini qoruyub saxlamışdır (6).

M.Nəcəfovun Azərbaycan İncəsənətinə həsr edilmiş iki yüzdən artıq məqaləsi Azərbaycan və rus dillərində çap edilən jurnallarda, məcmuə və toplularda isə ingilis, fransız, alman, ispan, polyak, çex, rumın, macar dillərinə tərcümə edilən əsərləri dərc edilmişdir. Mürsəl Nəcəfov Azərbaycan Incəsənət tarixini dünyaya tanıdan alimlərdən biridir.

1973-cü ildə işıq üzü görən və oxucu tələbatının çox olmasını nəzərə alaraq təkrar olaraq 1985-ci ildə çap edilən "Gözəllik aləminə səyahət" adlı kitabında müəllif Azərbaycan, rus incəsənəti ilə yanaşı, həm də xarici ölkələrin təsviri sənəti haqqında da mükəmməl orijinal məlumatlar verir. Bu kitabda sənətşünas alim dünya incəsənəti və tarixi mədəniyyət abidələrini real faktlarla təsvir edir. Sənətşünas M.Nəcəfovun "Gözəllik aləminə səyahət" kitabında Qobustan qaya təsvirləri, İşərişəhərin tarixi memarlıq abidələri, eləcə də Azərbaycan Milli Incəsənət Muzeyində qorunan Qərbi Avropa, rus, Azərbaycan rəssamlarının əsərləri haqqında tarixi mülahizələr yürüdülür. Bu təsadüfi deyil. Çünki, sənətkar dünyanın ən tanınmış abidələrini ziyarət etmişdir. Bu kitabla tanış olan hər bir kəs həqiqətən də müəllif tərəfindən gözəllik aləminə səyahətə düşür.

M.Nəcəfov "Rəssam və zaman" (7) kitabında XX əsr Azərbaycan rəssamlarının təsviri incəsənətin inkişafında rolunu oçerklər şəklində vermişdir.

Abdullayev K. "Rəssamlıq sələnaməmizin canlı tarixi" adlı məqaləsində yazır: "Azərbaycan rəssamlıq salnaməsinin yaradıcılarından biri olan, "sənət naminə sənətlə yaşayan" Mürsəl Nəcəfov bu salnamənin canlı tarixidir" (1).

Professor, Mürsəl Nəcəfov öz işinə professional yanaşaraq, milli tarixi dəyərlərimizin xalqa çatdırılması üçün müxtəlif müəssisə, idarə, orta və ali məktəblərdə, hərbi hissələrdə, respublikamızın kənd və rayonlarında elmi mühazirələrlə çıxış edirdi. M.Nəcəfov Azərbaycan televiziyasında "Gözəllik

aləminə səyahət” adlı verilişin həm müəllifi, həm də aparıcısı kimi uzun illər xalqın rəğbətini qazanmışdır.

1969-cu ildən etibarən M.Nəcəfov Azərbaycan Dövlət Politexnik institutunda da dərs demişdir. 1972-ci ildən ömrünün sonuna kimi Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun təsviri sənət kafedrasına başçılıq etmişdir. 50 ildən artıq pedaqoji fəaliyyət göstərən Mürsəl müəllim ömrünün sonuna kimi öz bilik və bacarığını əsirgəməmişdir. 1972-ci ildə professor elmi adını almış. 1977-1982-ci illərdə Rəssamlar İttifaqının katibi olmuşdur. Həmin ildən Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

Sənətkarlara böyük dəyər verən Mürsəl Nəcəfov onların tarixdə qalması üçün ömrünün sonuna qədər çalışmışdır. 2018-ci ildə 100 illik yubileyi qeyd edilən M.Nəcəfov 1998-ci ildə Bakıda vəfat etmişdir.

Bu şəxsi yaxından tanıyan hər bir insan onun aliliyi haqqında fikirlər söyləyir. O cümlədən, Mürsəl müəllimin keçmişdı tələbəsi olan, incəsənət sahəsində müəlliminin yolunu davam etdirən Emin Həşimov Mürsəl müəllim haqqında danışarkən belə deyir: “gözəl, ləyaqətli və xeyirxah insan, əsl pedaqoq və tərbiyəçi Mürsəl Nəcəfov özündən sonra yaxlı bir ad və indiyə kimi ona ibadət edən tələbələr qoymuşdur”.

Mən, Mürsəl müəllimin aspirantı olduğum müddətdə (1992-1995) bu günə qədər o böyük insanın adı ilə fəxr edirəm. Yazdığım hər bir elmi əsərə görə Mürsəl müəllimə minnətdaram.Xüsusilə, aspiranturada təhsil aldığım vaxt Mürsəl müəllimin məsləhəti və köməkliyi, eyni zamanda elmi redaktorluğu ilə tərtib etdiyim “Dünya muzeyləri” (Bakı-1995) adlı metodik-tövsiyə xarakterli kataloq mənim üçün həmişə dəyərli və ilk olaraq qalacaq.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi işçisi Pərvanə Əliyeva 2014-cü ildə “Azərbaycan sənətşünaslığının inkişafında Mürsəl Nəcəfovun rolu” adlı monoqrafiyanı çap etdirmiş, 2016-cı ildə “Mürsəl Nəcəfovun elmi irsində incəsənətin nəzəri problemləri” adlı namizədlik disserasiyasını müdafiə etmişdir.

Xülasə

Sənətşünas-alim M.Nəcəfov muzeyşünaslığın inkişafına əvəzsiz töhfələr vermişdir. Azərbaycan incəsənəti tarixi nəzəriyyəsi öz inkişaf yolunu XX əsrin ikinci yarısından başlayaraq M.Nəcəfov fundamental və hər kəs üçün anlaşıqlı olan əsərləri ilə incəsənət tarixində öz izini qoyan sənətşünaslardan biri olmuşdur. Onun sənət araşdırmaları sayəsində 5- kitab, monoqrafiya, çoxsaylı publisistik məqalələr işıq üzü görmüşdür. Qərbi Avropa İntibah dövrü incəsənətini dahi rəssamları ilə yanaşı Səttar Bəhlulzadə, Maral xanım Rəhmanzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Tağı Tağıyev, Vəcihə Səmədova, Toğrul Nərimanbəyov kimi görkəmli Azərbaycan rəssamları haqqında da, kitablar yazmışdır. Bu rəssamların dərin bilikdənqaynaqlanan istedadları yaratdıqları əsərlərdə öz əksini taparaq, nəinki Azərbaycanda, eləsə də xarici muzeylərdə nümayiş olunurdu. Gözəl insan, vicdanlı, nəcib, xeyirxah müəllim özündən sonra yaxşı ad, kitablar və hələ də onu hörmətlə yad edən tələbələr buraxdı.

Açar sözlər: sənətşünaslıq, muzüyşünaslıq, elm, alim, əsərlər.

Ədəbiyyat

Abdullayev K. Rəssamlıq salnaməmizin canlı tarixi // "Ədəbiyyat və incəsənət" qəzeti., 31 iyul, 1993.
Azərbaycan incəsənəti – Bakı, 1962, 200 s.
Əliyeva P. Azərbaycan sənətşünaslığının inkişafında Mürsəl Nəcəfovun rolu. Bakı-"Təknur"-2014)
Mehdiyev R.Təsviri sənətimizin vurğunu // "Azərbaycan" qəz., 5 mart, 2009.
Nəcəfov M. Bəhruz Kəngərli // "Pioner" jurn., 1940, №9.
Nəcəfov M., Əfəndiyev R., Tərlanov M. Təsviri incəsənət – Bakı, 1962.
Nəcəfov M. Rəssam və zaman-Bakı: Gənclik, 1977.
Nəcəfov M.Xalq rəssamı Əzim Əzimzadə - Bakı, 1959.
Nəcəfov M. Əzim Əzimzadənin bir əl yazması haqqında //Azərbaycan SSR EA "Xəbərlər", 1967, №1
Xəlilov İ. Sənətşünaslığımızın ağsaqqalı // "Ədəbiyyat və incəsənət" qəz., 1992.
Zeynalov X.Mürsəl Nəcəfov // "Mədəniyyət və incəsənət" toplusu, may 2003, s. 31-34.)
Наджафов М. Азим Азимзаде-Баку: Азернешр, 1965.

Эльфира Меликова-Гурбанова
АГУКИ доцент кафедры «Музееведения»,
Доктор философских наук по искусствоведению,
Ученый музеевед
E-mail: elfiramelikova@gmail.com

Ученый искусствовед Мурсала Наджафова и его заслуги в развитии Азербайджанского музееведение

Резюме

Искусствовед-ученый М. Наджафов внес неоценимый вклад в развитие музееведения. Историческая теория азербайджанского искусства начала свое развитие во второй половине XX века. М. Наджафов был одним из тех искусствоведов, кто оставил свой след в истории искусств своими фундаментальными и понятными для всех трудами. Благодаря его искусствоведческим исследованиям были изданы 5 книг, монография и многочисленные публицистические статьи. Наряду с великими художниками западноевропейского Возрождения он также написал книги о выдающихся азербайджанских художниках, таких как Саттар Бахлулзаде, Марал Ханум Рахманзаде, Микаил Абдуллаев, Тахир Салахов, Таги Тагиев, Ваджия Самедова, Тогрул Нариманбеков. Таланты этих художников, проистекающие из глубоких знаний, нашли отражение в созданных ими произведениях и экспонировались не только в азербайджанских, но и в зарубежных музеях.

Замечательный человек, честный, благородный и добрый учитель, оставил после себя доброе имя, книги и учеников, которые до сих пор вспоминают его с уважением.

Ключевые слова: искусствовед, музееведение, наука, ученый, научные труды

Elfira Melikova-Qurbanova
Azerbaijan State University of Culture and Arts,
Associate Professor of the Department of Museology,
Doctor of Philosophy in Art History,
Scientist museologist
E-mail: elfiramelikova@gmail.com

Art scientist Mursal Najafov and his role in the development Azerbaijan museology .

Summary

Art critic-scientist M. Najafov made invaluable contributions to the development of museology. The historical theory of Azerbaijani art began its development in the second half of the 20th century. M. Najafov was one of the art critics who left his mark on the history of art with his fundamental and understandable works for everyone. Thanks to his art research, 5 books, a monograph, and numerous journalistic articles were published. Along with the great artists of the Western European Renaissance, he also wrote books about prominent Azerbaijani artists such as Sattar Bahlulzade, Maral Khanum Rahmanzade, Mikayil Abdullayev, Tahir Salahov, Taghi Taghiyev, Vajiha Samadova, and Togrul Narimanbeyov. The talents of these artists, which stemmed from deep knowledge, were reflected in the works they created and were exhibited not only in Azerbaijan, but also in foreign museums. A wonderful person, an honest, noble, and kind teacher left behind a good name, books, and students who still remember him with respect.

Keywords: art, museology, science, scientist, works